# İnam və etimadın zəfəri



## Bu, gələcəyə qürurla baxan xalqın və dövlətin uğurunun ifadəsidir

***2018-ci il aprelin 11-də** keçirilmiş növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi partiyanın sədri cənab İlham Əliyev olmuşdur. Seçkilərdə səsvermə hüququna malik olan vətəndaşların 74,3 faizi iştirak etmişdir. Şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə cənab İlham Əliyev seçicilərin 86,02 faizinin səsini qazanaraq dördüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.*

"Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq". Bunu aprelin 11-də keçirilən prezident seçkilərində ona göstərilən böyük etimada görə xalqımıza minnətdarlığını bildirən Prezident İlham Əliyev deyib. O, həmçinin qeyd edib ki, xalq-iqtidar birliyi, məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik.

Qeyd etmək lazımdır ki, növbədənkənar prezident seçkilərinin keçirilməsini bir sıra amillər şərtləndirmişdi. Hər şeydən əvvəl, Azərbaycan ərazilərinin uzun illər boyu davam edən işğalına tezliklə son qoymaq üçün dövlətin daha da gücləndirilməsinə, ölkə daxilində islahatları sürətləndirərək çevik idarəetmənin qurulmasına, millətin hakimiyyətə etimadının bir daha sınaqdan çıxarılmasına, güvənməsinə əmin olmaqdan ötrü növbədənkənar seçkilərin keçirilməsi zəruri idi.

**(davamı 7-ci səhifədə)**

# İnam və etimadın zəfəri



## Bu, gələcəyə qürurla baxan xalqın və dövlətin uğurunun ifadəsidir

(əvvəli 1-ci səhifədə)

Digər tərəfdən, yaranmış mürəkkəb beynəlxalq şərait, müxtəlif dövlətlər arasında münasibətlərin gərginləşməsi çevik addımların atılmasını tələb edirdi. Regional və qlobal miqyasda proqnozlaşdırılmayan proseslər getdiyindən keçirilən demokratik seçkilər həm də Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirəcəkdi. Milli dövlətçilik tariximizdə yeni bir səhifə açan, müstəqillik dönəmində böyük yeri və rolu olmuş, hüquqi dövlət quruculuğu proseslərinə, ölkəmizin demokratik inkişafına mühüm töhfələr vermiş Yeni Azərbaycan Partiyası 11 aprel prezident seçkiləri ərəfəsində elan etdiyi mühüm qərarı ilə hər zamankı kimi, yenə də ümumən Azərbaycan xalqının istək və arzularının tərcümanına çevrildi. Azərbaycan Respublikasının prezidentliyinə xalqımızın tarix boyu yetişdirdiyi ən uğurlu liderlərdən olan cənab İlham Əliyevin namizədliyini dəstəkləməklə Vətənin gələcəyini növbəti 7 il müddətinə də əmin əllərə etibar etdi.

2003-2018-ci illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət və nəticəyə hesablanmış diplomatik uğurlar Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından daha qətiyyətlə çıxış etməsi və bir çox məsələlərdə beynəlxalq aləmin onun rəyinə hörmətlə yanaşması üçün münbit şərait yaratmışdır. Seçicilərin mütləq əksəriyyətinin Prezident İlham Əliyevə səs verməsi, əslində xalqın bütün destruktiv və xain qüvvələrə yox deməyinin təzahürü idi. 2018-ci ildə keçirilmiş seçkilər bir daha göstərdi ki, radikalların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur: "Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər" - fikrini səsləndirən Prezident İlham Əliyev davamlı olaraq iqtisadiyyat sahəsində islahatların təşəbbüskarı kimi çıxış edir. 2003-2018-ci illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur.

2003-cü ildən bəri yaşadıqlarımız, iştirakçısı və şahidi olduğumuz proseslər tarixin uğur və inkişaf reallıqlarıdır. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçərək, ciddi uğurlara imza atmaqla tarixinin ən qüdrətli dövrünə qədəm qoyub. Ölkə rəhbəri ulu öndər Heydər Əliyevin dövlətçilik ənənələrinə, xalqımızın milli maraqlarına söykənən dövlətçilik kursuna sadiqliyi, çevik qərarları, xalqın ruhuna uyğun sosialyönümlü siyasəti ilə ümumxalq sevgisi qazanıb. Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqelərini daha da möhkəmləndirmişdir. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq ölkəmizin xarici siyasət strategiyasının əsas prinsiplərindən birini təşkil etmişdir. Beynəlxalq aləmlə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq terrorizmlə mübarizə, vətəndaşlarımızın firavan və təhlükəsiz şəraitdə yaşayışının təmin olunması istiqamətində uzaqgörən xarici siyasət həyata keçirilmişdir.

Ölkəmizin hərbi potensialının daha da gücləndirilməsi Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasına daxil olmasında mühüm rol oynamışdır. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer tutmuşdur. Yeni Azərbaycan Partiyasınının sədri, Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət, tərəqqiyə və gələcəyə hesablanmış strateji hədəflər bir daha sübut etdi ki, bu illər ərzində atılan heç bir addım, deyilən heç bir söz təsadüfi olmayıb. Dövlət başçısının rəhbərliyi ilə vətənpərvər, torpağa, xalqa bağlı gənclər yetişdi və xalq-iqtidar birliyi sayəsində 44 günlük Vətən müharibəsini qalibiyyətlə başa vurduq.

Bəli, 11 aprel 2018-ci il növbədənkənar prezident seçkilərində İlham Əliyev dördüncü dəfə xalqın etimadını qazanaraq yüksək səs çoxluğu ilə ölkənin ən ali kürsüsünə yenidən seçildi. Bu tarix həm də Azərbaycan dövlətinin və xalqının növbədənkənar, təxirəsalınmaz və inanılmaz dərəcədə mümkünsüz görünən bir probleminin çözülməsi üçün başlanğıc oldu. Ulu öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - demişdi.

Onun 20 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, 30 il ərzində həsrətində olduğumuz Qarabağımıza, haqq və şərəf işimiz olan ərazi bütövlüyümüzə, nəhayət Qələbəyə nail olduq. Qarabağın azad olunmasının ilk anonsu da məhz xalqın, cəmiyyətin Prezidentə yenidən etimadı, inamı oldu. Prezident İlham Əliyev 5 il əvvəl keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdir: "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Dövlət başçısı hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə, güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. O gün yetişdi. Xalq "Dəmir yumruq" kimi Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşdi, düşmənə qalib gəldi. Prezident İlham Əliyev torpaqları işğaldan azad etməklə adını tarixə qızıl hərflərlə yazdırmış oldu. Ali Baş Komandan heç kəsin xəyal etmədiyi reallığı ortaya qoydu. Bu gün işğaldan azad olunmuş torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanır, inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanır, firavanlığın təməlləri atılır.

**Mustafa KAMAL,**
**"Respublika".**